13.Kaşğari M. Divanü Lüğat-it-Türk. Təcümə edən: Ramiz Əskər, Bakı: Ozan, 2006, IV cild,760 s .
14.Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Azərbycan Dövlət Nəşriyyatı, Bakı:1994, 248s
15.Гейбуллаев Г.К.Етногенезу Азербайджанцев (историко- этнографическое исследованием), т.1- Баку: Элм,1991, 552 с.
16.Qukasyan V. Qafqaz Albaniyası, Bakı: "Öyrətmən"1993,108s.
17.Mikayılov R.S. Azərbaycan ərazisində tayfalar, Bakı, 2005.
18.Muxtarova Əsməd Türk xalqlarının tarixi, "Adiloğlu" nəşriyyatı, Bakı- 2013.
19.Rəşid-əd Din Fəzlüllah "Oğuznamə" Azərbaycan Milli Ensklopediyası NPB, Bakı:2003,108 s.
20.Страбон География в 17-ти книгах. Перевод статья и комментарий А.Стратановского. М.: Изд-во Наука, 1964, 941 стр.XI kitab 490-533s.
21.Тревер К.В. К изучению Кавказской Албании/Тез.докл. на пленар.засед. Конф. По археологии Кавказа. Ереван, окт.1956, Москва,с 27-28, 419с.
22.Велиев М.Г.(Бахарлы) Азербайджан Физико Географический, этнографический и экономический очерк, 1921, 36с.
23.Vəlixanlı Nailə, Ərəb xilafəti və Azərbaycan,Azərbaycan Dövlət nəriyyatı, Bakı 1993.

## ТЮРКОЯЗЫЧНЫЕ ЭТНОСЫ, НАСЕЛЯВШИЕ ДРЕВНЮЮ АЛБАНСКУЮ СТРАНУ

***Мехтиева Гюлбаниз Гаджибаба кызы***

***Резюме***

В истории тюркских народов особое положение занимает труд Мусы Каланкатуклу "албанская история". Так, в книге "албанская история" содержится большое количество этнонимов тюркского происхождения. Основная цель нашей статьи – наряду с этимолого-лингвистическим анализом упомянутых в данной работе этнонимов,анализом их происхождения, рассказать об историческом развитии этнонимов до наших дней.

## TURKIC-SPEAKING ETHNOS SETTLED IN ANCIENT ALBANIAN COUNTRY

***Mehdiyeva Gulbaniz Hacibaba***

***Summary***

The work "Albanian history" by Musa Kalankatuklu has a special place in the history of Turkic peoples. Thus, there are many ethnonyms of Turkic origin in the book" Albanian history". The main purpose of our article is to talk about the etymological and linguistic analysis of the ethnonyms mentioned in this work,as well as the historical development of ethnonyms up to the present time by analyzing their origin.

***Rəyçi: Dos. G.H.Qafarova***
***BSU Azərbaycan dili və onun tədrisi kafedrasının 19 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:82.(091).**

## SOSİAL VƏ SİNFİ ZİDDİYYƏTLƏR ROMANI

***Dos. Məmmədov Fərrux Məmməd oğlu***
***Bakı Slavyan Universiteti***

**Xülasə:** *Fərman Kərimzadə XX əsr Azərbaycan ədəbiyyatında bir sıra maraqlı əsərlərin müəllifidir. Eyni zamanda, yazıçı tez-tez yaradıcılığında aktual məsələlərə də müraciət edib. 1970-ci illərin əvvəllərində yazılmış "qar aşırımı" romanı da aktuallığı ilə diqqəti cəlb edir. "Qar*

*aşırımı" romanı XX əsrin 20-30-cu illərində Azərbaycan kəndində baş verən mürəkkəb ictimai-siyasi hadisələrə həsr olunmuşdur. Roman zəngin, maraqlı və mürəkkəbdir. Karbalayi İsmayıl hadisələrin mərkəzindədir. O, zəngin sinif nümayəndəsidir. O, yeni struktur və ideologiya ilə barışmaq istəmir. Əks cəbhə iman və Baylar kimi insanlar tərəfindən təmsil olunur. Onların hər birinin öz həqiqəti var. Heç kəs geri çəkilmək, barışmaq, dünya haqqında düşünmək istəmir. Dünənə qədər dünyada yaşayan insanlar sosial və sinif münaqişələrinə görə düşmən oldular. Romanın hadisələri real faktlara əsaslanır. Eyni zamanda əsər yazıçının zəngin təxəyyülünün məhsuludur. Qeyd etmək lazımdır ki, bu işdəki problemlər indiyə qədər öz aktuallığını itirməyib. Bu məqalənin məqsədi yuxarıda göstərilən problemləri araşdırmaqdır.*

**Açar sözlər:** sinfi, klas, roman, problem, ziddiyyətlər.

**Ключевые слова:** социальное, класс, роман, проблемы, противоречия.

**Keywords:** social, category, novel, problems, contradictions.

Fərman Kərimzadənin «Qarlı aşırım» romanı XX əsrin 20-30-cu illərində Azərbaycan kəndində, eyni zamanda cəmiyyətində baş verən mürəkkəb ictimai-siyasi hadisələrə həsr olunmuşdur. İlk baxışdan romanın ana xəttini Abbasqulu bəy Şadlinski, Kərbəlayı İsmayıl, Qəmlo, Xəlil, İman və digərləri arasında gedən amansız, barışmaz mübarizə təşkil edir. Həqiqətdə isə, «Qarlı aşırım» romanı çoxplanlı və çoxşaxəli əsərdir. Mübaligəsiz demək olar ki, 20-30-cu illərdə Azərbaycan cəmiyyətində gedən ölüm- dirim, kim- kimi problemi heç bir əsərdə «Qarlı aşırım» romanında olduğu qədər dəqiqliklə, ardıcıllıqla, inandırıcı şəkildə göstərilməmişdir. Əsərdə təsvir olunan sosial və sinfi ziddiyyətlər kəskinləşərək son həddə çatmış, cəmiyyətin bütün təbəqələrini əhatə etmişdir. Dünənə qədər bir-birlərini dost, qardaş, qohum hesab edən insanlar kompromissiz, barişmaz mübarizəyə başlamışdılar. Bəlkə də 1937-ci ildə baş verən dəhşətli hadisələrin kökünü 20-30-cu illərdə axtarmaq daha düzgün olardı... Bu mənada Fərman Kərimzadənin «Qarlı aşırım» romanında təsvir olunan mürəkkəb hadisələri, obrazları ətraflı təhlil etməyə çalışacayıq. Onlaırn hər birinin inadla müdafiə etdiyi ədaləti, ideyası, haqq işi mövcuddur. Yuxarıda göstərilənləri yalnız Abbasqulu bəyə, Kərbəlayı İsmayıla, Qəmloya aid etmək düzgün olmazdı. Şıxəlioğlu, Şabanzadə, Talıbov, İman, Bəylər və digər bolşevik, kommunist, komsomolçu surətləri zəmanəyə, dövrə, mühitə, ideologiyaya uyğun olaraq və heç nəyi artırıb-əskiltmədən təsvir olunmuşlar... “Müəllif çox ustalıqla icmai səciyyə daşıyan hadisələri, ictimai xarakterləri milli xüsusiyyətlə bağlamışdır. Sinfi təbiətcə müxtəlif olan insanların özünəməxsus milli cəhətləri vardır” (6, s.159).

«Qarlı aşırım» romanında əsas hadisələr Kərbəlayı İsmayılın kolxoz quruluşuna, sovet hökumətinə qarşı qaldırdığı üsyanla başlayır. Kərbəlayı az müddətdə bir neçə kəndi ələ keçirmiş, hökumət nümayəndələrini həbs etdirmişdi. Külli- ixtiyarı qəddarlığı, kobudluğu ilə seçilən Qəmloya vermişdi. Qəmlonun kəsdiyi başın sorğusu yox idi. Dünənə qədər dost, kirvə, qohum olan insanların bir-birlərinin qanını içdikləri, qənim kəsildikləri zəmanə, dövran gəlib çatmışdı. Fərman Kərimzadə «Qarlı aşırım» romanında məhdud bir ərazidə, o cümlədən, bütöv Azərbaycanda sosial və sinfi ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxaran səbəblərə tam şəkildə aydınlıq gətirməyə çalışmış və qarşısına qoyduğu məqsədə nail olmuşdur. Bu məqamda bir faktı vurğulamaq yerinə düşərdi. Ola bilsin ki, deyilən fikir bir qədər subyektiv səslənsin. XX əsrin 20-30-cu illərində Azərbaycan cəmiyyətində və kəndində baş verən dəyişikliklər, proseslər zamanı sinfi, eyni zamanda sosial ziddiyyətlərin olmadığını, yaxud da süni şəkildə şişirdildiyini vurğulayan müəllflərin haqlı olduğunu söyləmək çətindir. Bu ən azından tarixi faktları, həqiqətləri düzgün şəkildə qavramamaq və sonrakı saxtakarlıqlara rəvac verməkdir, yol açmaqdır. Yəqin ki, tarixin təkrarlanması faktını da unutmaq düzgün deyildir. Xeyirlə şərin mübarizəsi əbədidir. Varlılarla yoxsullar arasında çatlar, keçilməz döngələr, həll ediləsi mümkün olmayan problemlər həmişə mövcud olmuş və bundan sonra da olacaqdır... Fərman Kərimzadənin «Qarlı aşırım» romanında qaldırılan problemlərə məhz bu istiqamətdən yanaşma metodoloji cəhətdən düzgün olardı…

Kərbəlayı İsmayıl uzun müddət ətraf kəndlərin şəriksiz hakimi, ağası funksiyasını həvəslə yerinə yetirmişdi. Hamı onun dediyi ilə oturub durmuşdu. Müxtəlif məqsədlərlə, niyyətlərlə kəndə gələn hökumət nümayəndələri onun evinə düşərdi. Kərbəlayını diqqətlə dinləyəndən sonra çıxıb gedərdilər. Əlbəttə, paylarını, bəxşişlərini alandan sonra... İndi isə zəmanə, dövran tamam dəyişmişdi. Acların, "lütlərin" hakimiyyəti bərqərar olurdu, getdikcə möhkəmlənirdi. Kərbəlayı baş verən hadisələri müvəqqəti, keçici hal hesab edirdi. Özünün dediyi kimi, «dilini dişinə tutub birtəhər dözürdü». Müdrik, tədbirli, ağıllı olmasına rəğmən, hadisələrin sonunu gözləməyi bacarmadı. Qiyam qaldırdı... Bolşeviklər, kommunistlər qiyamın yatırılması üçün müəyyən tədbirlər gördülər. Əvvəlcə hərbi yolla qiyamın yatırılması nəzərdə tutulmuşdu. Sonra Mərkəzin göstərişi ilə yaranmış vəziyyəti dədə-baba qanun-qaydaları, danışıqlar, sülh yolu ilə həll etmək qərarına gəldilər. Yenicə qurulmuş hökumətin nümayəndələri Kərbəlayını yaxşı tanıyırdılar. Yanında qaniçən cəlladın – Qəmlonun olduğunu da bilirdilər. Məhz bu səbəbdən Mərkəzdən göndərilən məktub raykom katibi Şabanzadəni xeyli təəccübləndirdi. «Əzab-əziyyətlə qurduğumuz kolxozları dağıdıblar. Quldurların ayağına getməliyik, yalvarmalıyıq... Bir belə də hövsələ olar? Əgər Kərbəlayıya gücümüzü göstərməsək, özgə kəndlərdə də qiyam başlanar. Deyərlər ki, o kolxozları dağıtdı, nə elədilər ki, bizə də nə eləyərlər. Bəs niyə belə məsləhət görürlər? Başa düşə bilmirəm» (4, s.4). Əslində yeni yaranan hökumət məkrli, incə siyasət işlətmişdi. Kərbəlayı kimi xalq arasında böyük hörmət, nüfuz sahibi olan varlı insanlardan istifadə etmək istəyirdilər. Bütün bunları özlüyündə saf-çürük edən raykom katibi Şabanzadə dərin fikirlərə qərq oldu. «- Yaxşı, kimi göndərək? Kərbəlayı İsmayıl qan-qan deyir, yanına heç kimi buraxmaz. Onun tanıdığı, inandığı, hörmətini saxladığı adam getməlidir. Gedən də həm ağsaqqal, həm möhkəm əqidə sahibi, həm dilavər, həm də igid olmalıdır. Kərbəlayını siyasətlə udmalıyıq. Onu bu yolla kolxoza gətirə bilsək, qazanacayıq. Özü də qazanacaq» (4, s.5).

"Fərman Kərimzadə lakonik cümlələrlə, obrazlı ifadələrlə, bir rəssam dəqiqliyi ilə, az söz işlətməklə xarakterlər yaratmağı, bədii lövhələri canlandırmağı bacarır. Onun üstün cəhəti də budur ki, qəhrəmanı var" (6, s.159).

Hamının gümanı Abbasqulu bəyə gəlirdi. Şabanzadə uşaq vaxtı qohumlarına qoşulub kəndə biçinə gələndə çox eşitmişdi: «- Abbasqulu bəy gələn yerdə qan bağlanar». Məhz belə bir igid, cəsur, mötəbər insanı Kərbəlayı İsmayılla danışığa göndərirdilər.Abbasqulu bəylə Şabanzadə bir-birlərini yarı sözdən başa düşdülər. Abbasqulu bəy haraya göndərildiyini yaxşı bilirdi. Ona görə də təminat istəyirdi. Əlbəttə, özü üçün deyil, Kərbəlayı İsmayıldan ötrü... Abbasqulu bəy bu qədər böyük hörməti, ad-sanı nahaqdan qazanmamışdı. Mübaliğəsiz demək olar ki, Abbasqulu bəy XIX və XX əsr Azərbaycan ədəbiyyatında (təəssüflər olsun ki) nadir hallarda rast gəlinən bütöv şəxsiyyətin bədii obrazıdır. Gözlərimiz qarşısında ideal insan, xalq üçün canından keçən obraz canlanır. Abbasqulu bəy mükəmməl təhsil almış, bərkdən boşa düşmüş, həyatın hər üzünü görmüşdü. Ən ağır anlarda elin, obanın yanında olmuş, kasıb-kusubun, fağır-füqəranın əlindən tutmuşdu. 1918-ci ildə Vedidə azğın erməni daşnakları ilə qəhrəmancasına vuruşmuşdu. Çıxış yolu olmadığını gördükdə, əhali ilə birlikdə İrana getmişdi. Məhz onun uzaqgörənliyi, tədbirli olması sayəsində azərbaycanlılar kütləvi qırğından qurtarmışdılar. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra dəfələrlə edilən təklifləri nəzərə almış, əhali ilə birlikdə geri qayıtmışdı. Abbasqulu bəy yeni yaratdığı «Qırmızı tabor» dəstəsi ilə Naxçıvanı erməni daşnaklarından qorumuşdu. Fikrimizcə, Abbasqulu bəyin kim olduğunu Mərkəzi Komitənin məsul işçisi Əli Tağızadənin sözləri dəqiq şəkildə səciyyələndirir. «- Mən Moskvadaydım, xəbərim olmayıb. Onu göndərmək kimin ağlına gəlib? Bizim sərkərdələrin biriylə danışmışdım, onu hərbi akademiyaya göndərəcəydik, birbaşa yüksək rütbə verəcəydilər. O kişi sərkərdəlik adamıydı. Mən ondakı ürəyi bilirsiniz kiminlə müqayisə eləyirəm? İran inqilabı vaxtı təşkilatımız məni bir yoldaşla silah aparmaq üçün Təbrizə göndərmişdi. Səttərxanı orada gördüm. Birbaşa güllənin üstünə gedirdi. Bu da eləydi. «Qırmızı tabora» əmr verəndə bilirsən İrəvanı necə götürdü? Urrayla!.. Qabaqda Abbasqulu bəy, arxalarında iki yüz atlı. Nə isə, böyük günah

işlətmisiniz. Onun yardığı cəbhəni beş daşnak generalı qoruyurdu. Neçə general əvəziydi. Götürüb gör hara göndərmisiniz!..» (4, s.174).

Əli Tağızadə kimi itirdiklərini hamıdan yaxşı başa düşürdü və dərdin ağırlığından əyilmişdi… Abbasqulu bəy kimi insanın, Xilaskarın məhz onu yaxından tanıyanlar, müqəddəs insan hesab edənlər tərəfindən öldürülməsi düşmənçilik münasibətlərinin, çoxsaylı sosial, sinfi ziddiyyətlərin hansı səviyyədə olduğuna əyani sübutdur. Vətənin daxilində gedən vətəndaş müharibəsindən bundan artığını gözləmək mənasız olardı. Həyatın hər üzünü görmüş Abbasqulu bəy də bütün bunları yaxşı başa düşürdü… Kifayət qədər tanıdığı, inandığı Xəlili – «Qırmızı tabor»un keçmiş döyüşçüsünü əbəs yerə özü ilə götürməmişdi. Abbasqulu bəy Kərbəlayı İsmayıla inanırdı. Çünki aralarında «kişi dostluğu» var idi. Kərbəlayı ağır, yerə baxan adamıydı. Həmişə fikirli olurdu. Kimlərdən qisas alacağı barədə fikirləşərdi. Qarşısındakı ocaqdakı közü eşib qurtarar, başını yuxarı qaldırardı. Hökmən növbəti qanlı cinayət baş verirdi. Lazımsız, mənasız qan düşmənçiliyi, Azərbaycan cəmiyyətində «əbədilik statusu» qazanmışdı, nəsildən nəslə keçir, yeni-yeni qurbanlar tələb edirdi. Nəsillərdə son nəfər qalana qədər «müsəlman düşmənçiliyi» qanlı "fəaliyyətini" "uğurla" davam etdirirdi. Kaş bu «əsrlərdən bəri keçib gələn, daşlaşan, qranitləşən adət-ənənə» Vətənin düşmənlərinə, xarici işğalçılara, milli staqınlara, «sapı özümüzdən olan baltalara» qarşı yönələydi və yaxud da yönəldiləydi. Başqa xalqlarda, millətlərdə olduğu kimi… Yox, qətiyyən, yox! Bu yazılmamış qanun hökmən Vətənin azadlığı, firavanlığı uğrunda yorulmadan çalışan namuslu, fədakar şəxsiyyətlərə qarşı istifadə edilməliydi! Onlar "hökmən" qurban getməliydilər! Abbasqulu bəyi sülh danışıqlarına başlamaq üçün Kərbəlayı İsmayılın yanına göndərənlər səhv etməmişdilər. Nəinki danışıqlar aparmaq, hətta Kərbəlayının yerini müəyyənləşdirmək və sağ-salamat gedib ora çatmaq müşkül məsələydi. Abbasqulu bəy hər yerdə böyük hörmət-izzətlə qarşılanırdı. Bütün sərhədlər açılır, keçilməz maneələr aradan qaldırılırdı. Kərbəlayı İsmayıl Abbasqulu bəyin gəlməsi xəbərini özünəməxsus tərzdə qarşıladı. «Adətdi, seldən qabaq qam-qalaq, zir-zibil gələr. Kötüyü selin güclü yeri axıdıb gətirər. İndi tərsinə çıxır. Qabağa kötüyü salıblar. Diyirlənib veriblər irəli. Demək istəyirlər ki, yüngülümüz Abbasqulu bəydi, sonrası lap ağır gələcək. Abbasqulu bəy gəlir. Onu bu işə qoşan çox bic adamdı. Bilir ki, mənə yaxşılığı keçib, sözünü yerə salmaram. Silah gücünə təslim olmayacağımı bilirlər. Hökumətə bax ha. Üstümə qoşun əvəzinə elçi göndərir.

Bəlkə, bu tədbiri tökən elə Abbasqulu bəyin özüdür. Arxayındı ki, həmişəki kimi, sözü yerdə qalmaz, xətrinə dəyən olmaz. Çox nahaq yerə gəlir. Ağsaqqallıq eləmək istəyir. Daha demir ki, o dövran keçdi getdi. Daha böyük-kiçik məsələsi yoxdur. Yüz ağsaqqal kəlamı bir qotur muzdur sözündən qeyrətsiz olub» (4, s.207).

Yuxarıda deyilən sözlər zəmanənin, dövranın yaratdığı amansız şəraitin, mühitin, vəziyyətin ağırlığından irəli gəlirdi. Ancaq Qəmlodan fərqli olaraq Kərbəlayı İsmayıl Abbasqulu bəyə inanırdı. Onun saf, təmiz niyyətlə gəldiyini anlayırdı. Rəsulu, Səməndəri öldürtdürüb qoşunu içəri buraxacağını da təsəvvürünə gətirmirdi. Bir sözlə, Abbasqulu bəy Kərbəlayı İsmayıl üçün naxırçı İman kimilərindən deyildi. Onu əvvəllər olduğu kimi hörmətlə qarşılayıb, hörmətlə də yola salmaq istəyirdi. Sülh danışıqlarının baş tutmayacağına əvvəlcədən qərar vermişdi. Həmişə yüksəklərdə möhkəm şəkildə qərar tutan Abbasqulu bəyin əvvəlki səviyyəsində, vəziyyətində qalmasını düşünürdü, arzulayırdı, çalışırdı. Kərbəlayı külü qurdalayandan sonra ilk dəfə ölüm hökmü çıxartmadı və Qəmlonu xeyli təəccübləndirdi. Kərbəlayı Qəmlonu neytrallaşdırmağa nail oldu və onu özü ilə götürüb Qarabağları tərk etdi. Abbasqulu bəyi adına layiq qarşılamağı kiçik qardaşı Vəliyə tapşırdı. Abbasqulu bəy doğrudan da həm özünün, həm də Kərbəlayının adına layiq qarşılandı. Ancaq ətrafa nə qədər göz gəzdirsə də, Kərbəlayını görə bilmədi. Bir çox məsələlərdən xəbərdar olmayan bolşevik Talıbov xüsusi narahatçılıq hissi keçirirdi. «Araya sükut çökmüşdü. Qarşı tərəfdə qara papaqlı, tutqun sifətli adamlar oturmuşdular. Heç kəs danışmağa cəsarət eləmirdi. Gözlər etibara, inama yad olmuşdu. Kipriklər qılınc kimi çalınırdı, toqquşurdu. Heç bir baxış Abbasqulu bəyin qarşısında tab tutmur, tez yayınırdı» (4, s.22).

Bolşevik Talıbov vəziyyətin ağırlığını yalnız indi başa düşdü. Əvvəlcədən hazırladığı sözlər yadından çıxdı. Tez-tez əlini cibində gizlətdtyt tapançasına tərəf apardı. Talıbov qonaqlığa, yaxud da danışıqlar aparmağa gəldiyinin fərqinə vara bilmirdi. Hər iki tərəfin nəzərləri Abbasqulu bəyə dikilmişdi. Hamı onun çörəyə əl uzatmasını gözləyirdi. Vəli gəlib Abbasqulu bəyin yanında oturdu və Kərbəlayının bir neçə saat bundan əvvəl Kolanlı kəndinə getdiyini söylədi. Tükü tükdən seçən Abbasqulu bəy Vəlinin yalan danışdığını və Kərbəlayının onunla görüşmək istəmədiyni başa düşdü. Burada boş- boşuna oturmağın mənasız olduğunu da dərk etdi. Çox namus-namus deyənlər hadisələrin nə ilə qurtaracağını saf- çürük etmək iqtidarında deyildilər. Abbasqulu bəy Vəlidən Kərbəlayının Kolanlı kəndində olduğunu öyrəndi. Yolüstü Səmədgildən İmanın həyat yoldaşı Növrəstəni Əzizkəndə apardılar. Xəlilin bacanağı Şirəligildə gizlətdilər. Talıbov gözlərinə inana bilmirdi. Ömründə qəzet-kitab oxumayan, təbliğatın, təşviqatın nə olduğunu bilməyən sadə, kasıb insanlar necə də mərd, tədbirli, namuslu, qeyrətli idilər! Gecə vaxtı Qəmlonun qəfil gəlişi təsadüfi deyildi! Qəmlo Səmədin meyiti üstündən keçib Növrəstəni apara bilərdi. Abbasqulu bəy silahsız və cəsarətlə Qəmlonun qarşısına çıxdı. «- Biz bilmirdik ki, kişiləri qoyub arvadları axtarırsan, Qəmlo! Kişinin heyfini arvaddan çıxmazlar. Bu biqeyrətlikdi, binamusluqdu» (4, s.39). Qəmlo sanki sehrlənmişdi, tilsimlənmişdi. Silaha əl atmadı. Abbasqulu bəyin sərt baxışları altında duruş gətirə bilmədi. Qapını çırpıb getdi. Talıbov da Abbasqulu bəyin zəhminə mat qalmışdı. «Quldur onun iki kəlmə sözündən sındı. Başını götürüb qaçdı. Bu necə möhkəm adamdı! Ondakı zabitə, zəhm hardandı? Beləsinə tüfəng, tapança da lazım deyil. İndi inandım ki, Şabanzadə bu işdən ötrü onu nahaq yerə seçməyib» (4, s.39). Talıbov hələ də qəzetlərdən oxuduğu təbliğatın gücünə, kara gələ biləcəyinə inanırdı. Bolşevik Talıbov Kərbəlayı İsmayıl və Qəmlo ilə onların öz dilində danışmaq lazım olduğunu unudurdu. Digər tərəfdən Abbasqulu bəylə Kərbəlayı İsmayıl öz planlarını, ideyalarını həyata keçirməkdə israrlı idilər. Abbasqulu bəy Kərbəlayı İsmayılla Kolanlı kəndindəki sabahkı görüşə ciddi hazırlaşırdı. Əvvəlcə İmanı azad etməyi xahiş edəcəkdi. Kərbəlayı İsmayıl da vaxtını boş keçirmədi. Kəsdiyi duz-çörəyi tapdalamamaq üçün Abbasqulu bəylə görüşməməyi yeganə düzgün vasitə hesab edirdi. Aldatdığı, qorxutduğu insanları qarşıdakı döyüşlərə hazırlamaq üçün onları yoxladı, ruhlandırdı. Əsir götürdüyü həmkəndlilərini – İmanla, Bəyləri dindirdi. Onları tövbə etməyə, öz tərəfinə çəkməyə çalışdı. Əslində Kərbəlayının savadsız, naxırçı hesab etdiyi İmanla olan mükaliməsində hökumətlə qarşıdurmada məğlub olacağı aydın şəkildə görünürdü. İman ölümünü gözünün qabağına almışdı, Kərbəlayı ilə cəsarətlə danışırdı. Doğrudan da məsələ, problem ştampeldə, möhürdə deyildi.

«- Onlarla iş düzəlirsə, yerini deyim. Axı Şura hökuməti bir möhür, bir də ştampel deyil, onun paytaxtı var, qoşunu var, bayrağı var, topu-topxanası var. Mən Şura hökuməti deyiləm ha, tutasınız, hər şey bitə. Hökumət ki, var, dovşanı araba ilə tutur. Özü də işini-gücünü buraxıb onun dalına düşmür. Əvvəlcə, hər bəndi-bərəni bağlayır. Söz Kərbəlayını götürdü: «Abbasqulu bəyin gəlməsi də elə bənd-bərəni bağlamaqdı» (4, s.30). İmanla olan söhbətdə Kərbəlayının minillik, əsrə bərabər hörməti təsadüfən, asanlıqla qazanmadığı aydın oldu. Doğrudan da Kərbəlayı Abbasqulu bəyə layiq adamdı. Onlara rəqib, düşmən deməyə dil dönmür. Kərbəlayı ilə Abbasqulu bəy müəyyən mənada İsmayıl Şıxlının «Dəli Kür» romanındakı Cahandar ağayla Molla Sadığı xatırladırlar. Əgər onlar birləşsəydilər, dağı dağ üstə qoyardılar. Birincilərə xarici, ikincilərə isə daxili düşmənlər birləşməyə imkan vermədilər, hər vəchlə mane oldular. Ancaq Kərbəlayı ilə İman arasında olan mükalimədə, dialoqda sinfi ziddiyyətlərlə yanaşı digər məsələlərə də aydınlıq gətirildi. Kərbəlayı açıq mübarizə aparmışdı, düşmənlə düşmən, dostla dost olmuşdu. Varlı, kasıb, dost, düşmən olmasından asılı olmayaraq elin namusunu öz namusu bilmişdi və qorumuşdu. Ölüm ayağında olan İmanın Kərbəlayıya dediyi sözlərin arxasında minillik el-oba qayda-qanunları, adət- ənənələri dayanırdı. «- Biz düşmənik. Məni bu saat öldürə bilərsən, kef sənindi. Nə eləsən, öz işindi. Qolçomaq olubsan – öz yerində. Mənim dediklərimi yaltaqlıq, yarınmaq bilmə. Sən elin namusunu qoruyubsan – öz namusun bilibsən. Düşmən də olsaq, külfətimi sənə ümid oluram. Ədavətin varsa, özümü öldür, qiymə-qiymə doğra, hər

şaqqamı bir darvazadan as. Namus məsələsi ağırdı. Bir də ki, bu dünya çərxi-fələkdi, hərləyib gətirir.

- Kişi kişinin namusuna toxunmaz, İman!

- Sağ ol, Kərbəlayı, mənə bircə bu kəlmən lazımdı» (4, s.31).

Kərbəlayı güman edirdi ki, Abbasqulu bəylə bir daha görüşməyəcəkdir. Vəli Abbasqulu bəyi Qarabağlardan geri qaytaracaqdır. Qəmlonun «Abbasqulu bəy bizdə sirr qoymadı. Qarabağlarda bənd almayıb, keçib yuxarı kəndlərə» sözlərindən sonra bir müddət özünə gələ bilmədi. Kərbəlayı düşündü ki, Abbasqulu bəyi hökmən qarşılamaq, danışmaq lazımdır. İndiki vəziyyətdə dost və ya düşmən kimi gəlməsindən asılı olmayaraq… Həqiqətən Fərman Kərimzadənin «Qarlı aşırım» romanının ən təsirli səhnələrindən biri Kərbəlayı İsmayılla Abbasqulu bəyin qarşılaşması, görüşməsidir. Dünənə qədər aralarından su keçməyən, bir-birlərinə qardaş deyən iki mötəbər, varlı insanlar nə tez barışmaz, qəddar sinfi düşmənə çevrildilər? Axı qapıdan içəri daxil olan qonaq düşmən də olsa, onu ləyaqəltlə qarşılamaq, yola salmaq lazımdır. Bu fakt hakimiyyət uğrunda gedən sinfi mübarizənin, vətəndaş müharibəsinin hansı yüksək nöqtələrdə olduğuna bir daha əyani sübutdur. Həm də Abbasqulu bəy Kərbəlayı üçün sadəcə dost, sadəcə qonaq deyildi! Kərbəlayı İsmayıl oğlu Yadullanın müsibətini hər an, hər dəqiqə xatırlayırdı. Yadullanı qonşu kəndin adamları doğramışdılar. Meyidini də vermirdilər. «Kərbəlayı İsmayılın bu günündə onun harayına çatan Abbasqulu bəy olmuşdu. Abbasqulu bəyin qabağında başına-gözünə döymüş, hönkür-hönkür ağlamışdı, ilan dili çıxarmışdı: «Yadulla belimi sındırdı». Abbasqulu bəy uzun get-gəldən, minnətdən sonra Yadullanın meyidini alıb atasına vermişdi.

Kərbəlayı İsmayıl axırda:

- Sən mənim boynuma elə bir haqq qoydun ki, Abbasqulu bəy, yüz il qapında nökərçilik eləsəm, əvəzini çıxa bilmərəm, - demişdi» (4, s.8).

Cəmiyyətdə ictimai münasibətlərin gərginliyi, ifrat ziddiyyətli olması, həddindən artıq çulğalaşması insanlara keçmişi, hörmət-izzəti unutdurmuş, şəxsi münasibətləri ön plandan arxa plana keçirmişdi… İnsanlar iki barışmaz düşmən cəbhəyə, qütbə bölünmüşdülər… Kərbəlayı Abbasqulu bəylə Qəmlonun qarşılıqlı atmacalarına, söz duelinə dözə bilmədi. «- İçəri gəl, bəy, - dedi». Abbasqulu bəy içəri öz evinə daxil olan kimi girdi və Qəmlonu xeyli təəccübləndirdi. «Kərbəlayı otağın ortasında dayanıb gözlərini qıymışdı. Qonağın gözünə yaşlı, qoca görünməmək üçün qəddini düzəltməyə çalışmışdı. İndiyə qədər məclislərdə həmişə Abbasqulu bəydən aşağıda oturmuşdu. Hər sözünə: Bəli, düz buyurursunuz, - demişdi. Özünü ondan asılı, kiçik saymışdı. Amma, indi necə olursa-olsun, şux dayanmalı idi. Özünü onun yanında sındırmamalı idi.

Ancaq Abbasqulu bəy yaxınlaşanda onun qabağına getdi, əllərinin ikisini də birdən uzatdı…» (4, s.49), Abbasqulu bəy təklifsiz oturdu. Kərbəlayı İsmayılın duruşundan, hərəkətindən Abbasqulu bəyi eşitmək istəməməsi aydın oldu. İlk dəfəydi ki, söhbətləri alınmırdı. Sözləri bir-birinin boğazından keçmirdi. Nəhayət, Kərbəlayı dilə gəldi: «- Gərək bu işə qol qoymayaydın, Abbasqulu bəy! Bir-birimizə hörmətimiz keçib. Çörək kəsmişik. Onu ayaqlamaq ağırdır, bəy! Mənim davam Şura hökumətinnədi, bəy!

- Nə eləyib sənə Şura hökuməti?

- Nə eləyib?

O çox söz deyərdi. Kərbəlayı İsmayılın arxalandığı səbəblər çox idi. On ilin içində dama-dama yığılmışdı, gölə çevrilmişdi. Bu yağıntı axıb getməyə yer axtarırdı. Qabağına bənd atmaq, saxlamaq asan deyildi. Coşurdu, kükrəyirdi. Tufanlar onu çalxalayırdı, sahillərə çırpırdı, bəndi istər-istəməz dağıdırdı (4, s.50).

Kərbəlayı təsbehini çevirərək dərin fikrə getdi, olub keçənləri yenidən xatırladı... Qarabağlarda yoxsullar komitəsi seçmişdilər. Məclisin aşağı başında oturan, əldə-ayaqda işləyən, onun buyruğuna gedən adamlar cəsarətlə qapısına gəlirdilər. Dalınca adam göndərib yanına çağırtdırırdılar. Getmirdi. Kərbəlayını ən çox yandıran bayraq məsələsi idi. Bayraq İmanın evindən gətirilmişdi, onun döşək üzündən ötrü aldığı parçadan düzəldilmişdi. Kərbəlayı üçün inandığı varlığın, canlı- cansızın əvvəli bir az tutqun, dumanlı, uzaq, gözəgörünməz, sirli

olmalıydı. İmanın asdığı bayrağın altından keçmək Kərbəlayı üçün ölümdən betərdi. Taxılın artığını hökumətə təhvil vermək qərarını da İman verməmişdi. Yuxarıların sərt göstərişini yerinə yetirmişdi. Kərbəlayı güman edirdi ki, dünənə qədər onun qapısında naxırçılıq, nökərçilik edən insanlardan təşkil olunan hökumətin ömrü az olacaq. Maraqlıdır ki, kənddə kasıb-kusublardan təşkil olunan yerli hökumət getdikcə möhkəmlənirdi, sıraları ardıcıl olaraq genişlənirdi. İndiki rəislər də keçmişdəkilərə bənzəmir, onunla məsləhətləşmirdilər. Yoxsullar komitəsinin üzvü olan İman, Bəylər icazə almadan Kərbəlayının evinin hər künc-bucağını axtardılar, xırmanda möhür vurulmuş taxılları müsadirə etdilər. Kərbəlayı hiss edirdi ki, getdikcə təklənir, gücü və insanların ona olan inamı azalır. Əksəriyyət İmanın bayrağının altında toplaşır, ondan məsləhət alır, dediklərini, əmrlərini dönmədən yerinə yetirirdilər. Kərbəlayı bütün bu yeniliklərin əsas səbəbkarı, günahkarı İmanı qaranlıq gecələrin birində, gizli şəkildə öldürmək istəsə də, mümkün olmadı. Sonra özünün dediyi kimi «kolxoz oyunu» ortaya atılanda dözmədi. Hökumət əleyhinə qiyam qaldırdı. Nə ilə qurtaracağını fikirləşmədən... Abbasqulu bəy sona qədər ümidini itirməmişdi. Kərbəlayını yola gətirmək üçün çox uzaqdan başladı. «-Abbasqulu bəy başını qaldırdı. İri, kədərli gözləri ona dikildi. Kədər onun baxışlarının istiliyini bəlkə də artırırdı.

- Yaşımıza görə onsuz da çox şey görmüşük, Kərbəlayı. Mən onu demirəm ki, sən atları dəyişə-dəyişə üç aya Məkkəyə gedib qayıtmısan, ziyarətgah görübsən, yaxud neçə-neçə ölkənin torpağını ayaqlamısan. Yox, zəmanə yaşımıza görə bizə çox şey göstərib. Odur ki, gərək hər şeyi saf-çürük eliyək. Yaxşını pisdən ayıraq. Bundan sonra gedəcəyimiz yolu tanıyaq. Yoxsa bu gözlər hələ çox şey görməli olacaq» (4, s.57). «Onların arasında çox ağır söhbət gedirdi. Ağırlıq təkcə sözlərdə deyildi, bütün keçdikləri yol, gördükləri dünya yada düşürdü. Yollar birləşirdi, ayrılırdı, çarpazlaşırdı, dolaşırdı, qoşa gedirdi, hərəsi dağın bir tərəfindən keçirdi. Bu söhbət onları yollara qaytarmışdı. Hərəsi öz atını sürüb gedirdi. Gördüklərini təzədən yaşayırdılar» (4, s.57).

Abbasqulu bəy hadisələrin sonunun nə ilə qurtaracağını yaxşı bilirdi. Qısa müddət ərzində elin, obanın başına gələn dəhşətli müsibətlərin şahidi olmuşdu. Hamı ilə birlikdə köçgünlük, didərginlik həyatını yaşamışdı. Uzaqgörən, müdrik, ağıllı idi. Aldadılmış insanları gələcəkdə onları gözləyən bəlalardan xilas etməyin zəruriliyini, vacibliyini yaxşı başa düşürdü. Başqa sözlə desək, hər bir Vətən övladının taleyini, qismətini özününkü hesab edirdi. Səhv yolda olanları düz yola çəkməyi özünün ağsaqqallıq, vətəndaşlıq vəzifəsi, borcu hesab edirdi.

Xalqın keçmişindən, hansı bəlalara düçar olmasından yaxşı xəbərdar idi. Eyni zamanda xalqın gələcəyini düşünürdü. Birləşmənin vacib olduğunu hər addımda hiss edirdi. Nahaqdan tökülən və töküləcək qanların qarşısına həmişəlik sipər, sədd çəkmək lazımdı. Onsuz da son zamanlar çoxlu itkilər vermişdilər. Ancaq Kərbəlayı İsmayıl ümumi işin naminə azacıq da olsa, güzəştə getmək istəmirdi. Onun həyatda özünəməxsus yaşam tərzi, həqiqəti, dünyası vardı. Son dövrdə baş verən hadisələr də Kərbəlayının səbr kasasını coşdurmuşdu. «Kərbəlayı təsbehi bir dövrə çevirənə qədər gördükləri, başına gələnlər gözünün qabağından lövhə-lövhə keçirdi.

- Bəy, o kəsdiyimiz duz-çörək haqqı, - ondan əziz şey bilmirəm, - mənə dəyən kimə dəysəydi, indiyə qədər on dəfə silah götürərdi. Adamın varına da toxunanlar,torpağını da götürərlər, nə olar, elə bilirəm əl çirkidi. Bəs hörmətə sözün nədir? Kişiliyə sözün nədir? Axı birdən-birə hər şeyi adamın əlindən almazlar!» (4, s.65)

Kərbəlayı ilk növbədə hörmətin, izzətin aradan qaldırılmasını, böyüyün-kiçiyin yerinin bilinməməsini nəzərdə tuturdu. Cəmiyyətdə köklü, inqilabi dəyişikliklərin getdiyi bir zamanda mənəvi dəyərlər haqqında düşüncələrə meydan verilərdimi? Əlbəttə, yox. Həm də İman və Bəylər 20-30-cu illərin digər ədəbi qəhrəmanları ilə müqayisədə toya-bayrama getməliydilər. Fikrimizcə, Kərbəlayı İsmayılın faciəsinin əsas səbəbi onun iliyinə qədər azərbaycanlı olması, siyasət işlətməməsi və baş verən hadisələrə həqiqi qiymət verə bilməməsi, saf-çürük etməməsi, sonunu düşünməməsidir. Bir çox xüsusiyyətlərinə görə Kərbəlayı İsmayıl İsmayıl Şıxlının «Dəli Kür» romanındakı Cahandar ağa surətinin eynidir, əkiz qardaşıdır. Kərbəlayı İsmayıl XX əsr Azərbaycan mühitinin, məişətinin, ictimai-siyasi həyatının Cahandar ağasıdır. Əgər Cahandar ağa XX əsrdə yaşasaydı, şübhəsiz ki, Kərbəlayı İsmayıl kimi hərəkət edərdi. Ancaq Kərbəlayı

İsmayıldan fərqli olaraq Cahandar ağanın Abbasqulu bəy kimi sədaqətli, ağıllı dostu, məsləhət verəni olmayacaqdı. Çox keçmədi ki, Kərbəlayı düşdüyü vəziyyətin çıxılmaz olduğuna, Abbasqulu bəyin və dünənki naxırçı, bu gün isə hakimiyyət nümayəndəsi olan İmanın haqlı olduğuna əmin oldu. Çoxları Abbasqulu bəyin Kərbəlayının yanından əliboş qayıtmayacağını güman edirdilər. Ancaq Kərbəlayı Abbasqulu bəy kimi insanın da sözünü yerə saldı. Abbasqulu bəy sözünün yerə düşməsindən peşmançılıq hissi keçirmirdi. O, ürəkdən Kərbəlayının və aldadılan, nahaqdan qırğına verilən digər insanların halına acıyırdı. «- Xəlil bunların gözü bağlıdır, - deyən Abbasqulu bəyin gözləri yol çəkirdi. – Aça da bilmədik. Deyirlər, guya namus üstündə silah götürüblər. Səni inandırıram ki, ağılsızlıqları ucundan namusları əldən gedəcək, arvadlarının yaylıqları at dırnaqlarının altında qalacaq – məni yandıran budur. Onsuz da Kərbəlayı gününü görüb, dövranını sürüb. Bu gün-sabah əcəli yetişəcək. Mənə elə gəldi ki, o, hamını özü ilə bərabər o dünyaya aparmaq istəyir» (4, s.68).

Abbasqulu bəyin dediklərinin doğru olduğunu sübut etmək üçün çox vaxt lazım olmadı. Kərbəlayı Abbasqulu bəyin sözlərinə onun özünü öldürtməklə başladı. Qəmlo Abbasqulu bəyi, Xəlili öldürdü. Kərbəlayı halı özündə olmayan, həyatla vidalaşan Talıbovu sağ-salamat geriyə göndərdi. Üç yüz illik Romanovların taxt-tacını üstünə çevirən Şura hökumətinə hədə göndərməyi də unutmadı. «-Səni öldürmürəm, gözünlə bu müsibəti gördün. Get şəhərdə de ki, kim ürək eləyib bura ayaq bassa, axırı belə olacaq. Get, sənin özünü bir də bu tərəflərdə görsəm, tikən tapılmayacaq! Eşitdin? Onlara de ki, Abbasqulu bəydən əllərini üzsünlər. O bizim içimizdən çıxıb, bizim olmalıdı, sağlığında sizin yolunuzda can qoysa da, yenə də bizimdi. Oğlum Yadullanın yanında dəfn eliyəcəyəm. Hər gün ystünə gedəcəyəm» (4, s.76). Çoxları Abbasqulu bəyin ölümünə inanmırdılar. «- Belə bir insana, igidə kimin əli qıyar» - deyə düşünürdülər. Ancaq misli görünməmiş cinayət, faciə baş vermişdi. Abbasqulu bəy sanki sağlığında nəhəng dağa bənzəyirdi. İki, bir-birlərinə düşmən, qənim kəsilən, barışmayan cəbhələr arasında keçiləsi qeyri-mümkün olan sərhəd, sərhədçi, barışdırıcılıq rolunu yerinə yetirir. Abbasqulu bəyin ölümündən sonra Kərbəlayı həqiqətən sarsılmışdı. Oğlu Yadullanın müsibəti təkrarlanmışdı. Həm də Kərbəlayı hansı böyük cinayətə rəvac verdiyini, kişiliyi, çörəyi, dostluğu tapdaladığının fərqinə vardı. Eyni zamanda özünün qara günlərinin başlandığını, çıxış yolu olmadığını, bütün körpüləri yandırdığını başa düşdü. Həm də oğlu Yadullanın yaralı, narahat qəlbinə, ruhuna xəyanət etdi. Hansı ki, Kərbəlayını ömrü boyu yandıracaqdı… Və yandırdı da… Sovet hökumətinə qarşı qiyam qaldırandan, sərhədi bağlayandan bəri ilk dəfə belə cinayət törətmişdilər. İlk qurbanları isə onlara arxayınlıq, öz güclərinə inam gətirmək əvəzinə, hamısını sarsıtmışdı. Kərbəlayı özünə gələ bilmirdi. Belə cinayət edəcəklərini ağlına gətirməmişdi. "İndi onun ürəyindlə qəribə bir fikir oyanmışdı: özü bilə-bilə yolu azıb, gəlib bataqlığa düşüb. Bataqlıqdakı adi su, palçıq deyildi, ora qanla dolmuşdu. Birinci addımda topuğa qədər qana batıb. İrəlidə dizinə, qurşağına, döşünə, boğazına çıxacaq. Onu boğub öldürəcək. Geriyə qayıtmaq da irəli getmək kimi onun üçün çətindi. Bir yerdə quruyub qalıb" (4, s.77).

Fərman Kərimzadə böyük ustalıqla bir vaxtların el ağsaqqalının ürəyindən keçənləri düzgün şəkildə əks etdirmişdir. Kərbəlayının etirafları dövrün, zəmanənin, mühitin mürəkkəbliyindən, dünyanın qana çalxalandığından xəbər verirdi. İnsanların günahı, ağılsızlığı, qəddarlığı ucbatından dolaşığa düşən kələflərin ucunu tapmaq mümkün deyildi. Abbasqulu bəylə Xəlilin öldürülməsi müxtəlif dedi-qodulara, şayiələrə səbəb olmuşdu. Guya onlar satılmışdılar, düşmən tərəfə keçmişdilər. Bu ölümdən də ağır cəza idi. Ancaq Şabanzadə, Şıxəlioğlu və Abbasqulu bəylə Xəlili yaxından tanıyanlar onların təmizliyinə, paklığına, müqəddəsliyinə zərrə qədər şübhə etmirdilər. Hətta Kərbəlayının ən yaxın qohumları, adamları Abbasqulu bəylə Xəlilə görə ondan üz döndərməyə başlamışdılar. Kərbəlayı vəziyyətin çıxılmaz olduğunu getdikcə daha çox dərk edir, özünə qarşı sərt, ağır ittihamlar irəli sürürdü: Abbasqulu bəyin atının fasiləsiz olaraq kişnəməsi, sahibinin yanından uzaqlaşmaması, onu imsiləməsi kişini dəhşətə gətirmişdi. Kərbəlayı İsmayıl üzünü çevirib gözlərinin yaşını sildi.

“Namərdlik elədim, bu ağsaqqal çağımda. Elə namərdlik elədim ki, heç tarixdə görünməyib. O dünyaya necə gedəcəym? Sorğu-suala tutanda bəs buna nə deyəcəyəm? Nə bəhanə tapacağam? Günahımı Qəmlonun üstünə yıxsam necə olacaq? Deməzlər, bəs niyə yalan danışırsan? Gətirib dirəyəcəklər üzümə. Deyəcək, sən fitva verməsəydin, mən eləməzdim. Axı orda hər şey dil açıb danışır. Allahın ocağını eşdiyim kösöv də üzümə keçə bilər. Deyər mənimlə külü eşəndə filan şey fikirləşirdin.

O dünya ağlına dünən, srağagün gəlmirdi. Bəlkə də Abbasqulu bəy kimi igidin arxasını yerdə, qarın üstündə görəndə özünün də bir gün beləcə sonu çatacağını yəqin eləmişdi. Kaş bunu yuxuda görəydim, mənə də indiki kimi təsir eləyəydi. Onda belə əhvalat baş verməzdi. İndi Abbasqulu bəyin başı üstündə atı kişnəyir. Mənim başımın üstündə necə ? Kim, kim danışacaq? Qəmlo?..»

Kərbəlayı İsmayıl acı-acı güldü: «Qəmlo!..» (4, s.83).

Bütün bunlar Kərbəlayı üçün Qiyamət gününün yaxınlaşdığından xəbər verirdi. Kərbəlayı heç olmasa Abbasqulu bəyi layiqincə dəfn etmək, torpağa tapşırmaq istəyirdi. Ancaq etdiyi günahlar, amansız tale buna da imkan vermədi. Abbasqulu bəylə Xəlilin Qəmlo tərəfindən öldürülməsindən xəbər tutan bolşeviklər danışıqların mənasız olduğunu başa düşdülər, son döyüşə hazırlaşdılar. Nəyin bahasına olursa-olsun qolçomaq qiyamının mərkəzi hesab olunan Qarabağları götürmək qərarına gəldilər. Bunun üçün kifayət qədər qüvvə də var idi. Abbasqulu bəyin öldürülməsi bolşevikləri xüsusilə qəzəbləndirmişdi. Kərbəlayı Qəmlo ilə danışandan sonra qəti qərara gəldi. Müqavimət göstərmək mənasızdır. Abbasqulu bəyin dedikləri bir-bir yerini alırdı. O necə də uzaqgörən və haqlıymış! Hamının, hətta Kərbəlayı ilə Qəmlonun da taleyini düşünürmüş. «Abbasqulu bəyin kürəyi yerə gələndən sonra ürəyindəki inam qırılmışdı. Dünyanın etibarı yoxdu. Mənim şahlığımnan da bir şey çıxmayacaq. İnsan – qanadsız quşdu, göz açıb yumana qədər yoxa çıxır. Heç kəsə etibar qalmayıb – oğula da, dosta da, ömrə də, dünyaya da… Tüpürüm hər şeyə!» (4, s.120). Hər şeydən hirslənirdi. Çıxış yolu axtarırdı. Onu da qəbirstanlıqda görürdü: «Görəsən, qəbirstanlıq üzü görəcəyikmi, ilahi? Sakitcə öləm, qohum-əqrəba yığışıb çiyinlərində aparalar qəbiristanlığa. Bu dünyada sənin də üstündə bir yazı qala. Biləl追 ki, belə bir adam varmış» (4, s.125-126). Kərbəlayı İsmayıl ömrü boyu sərtliyi, mərdliyi, dözümlülüyü ilə çoxlarından seçilmişdi. Ölümün gözünün içinə düz baxmışdı. XX əsr Fəxrəddininin- dünyadan nakam getmiş oğlu Yadullanın azman müsibətini də çəkmişdi. Kərbəlayı İsmayılın etirafı çox mətləblərdən xəbər veririd. İlk növbədə sosial və sinfi ziddiyyətlərin miqyasından və nəticələrindən... Bu gün də sosial və sinfi ziddiyyətlərin nələrə qadir olduğunu bir an belə unutmamalıyıq... Fərman Kərimzadənin “Qarlı aşırım” romanında gəldiyi əsas nəticə məhs budur.

### *Ədəbiyyat*

1.Əlişanoğlu T. Azərbaycan “yeni nəsri”. Bakı: “Elm”, 1999.
2.Hüseynov A. Nəsr və zaman. Bakı: “Yazıçı”, 1980.
3.İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı: “Elm”, 1991.
4.Kərimzadə F. Qarlı aşırım. Roman. Bakı: “Gənclik”, 1987.
5.Quliyev N. Yaradıcılıq axtarışları. Bakı: “Gənclik”, 1977.
6.Şıxlı İ. Daim axtarışda. Bakı: “Yazıçı”, 1988.

## A NOVEL OF SOCIAL AND CATEGORY CONTRADICTIONS

***Mammadov Farrux Mammad***

***Summary***

Farman Karimzade is the author of a number of interesting works in XX century Azerbaijani literature. At the same time, the writer often addressed actual issues in his creativity. The novel “Snowy Pass”, written in the early 1970s, is also notable for its actuality. The novel “Snowy Pass” is dedicated to the complex socio-political events that took place in the Azerbaijani village in the 20-30s of the XX century. The novel has rich, interesting and complex images.

Karbalayi Ismail is at the center of the events. He is a representative of the rich class. He does not want to reconcile with the new structure and ideology. The opposite front is represented by people like Iman and Baylar. Each of them has its own truth. Nobody wants to retreat, reconcile, think about peace. Until yesterday, people living in peace were made enemies by social and class conflicts. The events of the novel are based on real facts. At the same time, the work is the product of a writer's rich imagination. It should be noted that the problems in this work have not lost their actuality for this time. The article aims to investigate the above mentioned problems.

## РОМАН СОЦИАЛЬНЫХ И КЛАССОВЫХ ПРОТИВОРЕЧИЙ

***Мамедов Фаррух Мамед оглы***

***Резюме***

Фарман Керимзаде в азербайджанской литературе XX века является автором много интересных произведений. И писатель всё время обращался к актуальным темам. Написанные писателем в начале 70-х годов роман «Снежный перевал» занимает особое место в его творчестве. Роман «Снежный перевал» посвящён сложным общественно-политическим событиям, которые происходили в азербайджанской деревне в 20 – 30-е годы XX века. В произведении изображены сложные и колоритные образы. В центре основных событий – образ Кербалай Исмаила. Он богатый, известный, состоятельный человек. Не хочет мирится с новым общественным строем и новой идеологией. По другой стороне баррикады – комсомольцы Иман, Бегляр и др. У каждого своя правда. Никто из них не думает о мире, о дружбе. И в этом смысле трагичная история народа – предмет постоянных раздумий Фармана Керимзаде. Следует отметить, что роман «Снежный перевал» написан на основе реальных фактов. Но и существенную роль в произведении играет художественный вымысел писателя. Проблемы, поднятые в романе Фармана Керимзаде актуальны и по сей день. В статье анализированы именно вышеназванные проблемы.

***Rəyçi: professor Leyla Məcid qızı İmaməliyeva***
***BSU Azərbaycan ədəbiyyatı 28 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 03 noyabr 2021-ci il***

**UOT:82.-053.2**

## 60-80-ci İLLƏRDƏ RUS UŞAQ POEZİYASI: İRİNA PETROVNA TOKMAKOVA

***Dos. Qafarova Səməngül Hüsü qızı***
***Bakı Slavyan Universiteti***

**Xülasə**: *İrina Petrovna Tokmakova 3 mart 1929-cu ildə Moskvada anadan olmuşdur. O Uşaq şairi, şeirlər tərcüməçisi, bir neçə məşhur povestlərin də müəllifi, MDU-nin filologiya fakültəsini bitirmiş, linqvistika ilə məşğul olmuşdu. MDU-nin filologiya fakültəsini bitirmiş, linqvistika ilə məşğul olmuşdu. Aspiranturaya daxil olmuş və bu sahədə fəaliyyət göstərmişdi. Uşaqlara yaxınlığı digər xalqların ədəbiyyatından etdiyi tərcümələri ilə başlamışdı və belə məşhurlaşmışdı. 1953-cü ildə universiteti bitirən Tokmakova tərcüməçi kimi fəaliyyət göstərmişdi. Onun ilk tərcümə kitabı şved xalq mahnıları olmuşdu.*

*O, ingilis, ispan, italiya, isveç, holland və digər yazarların əsərləri ilə uşaqları tanış edirdi. İ.P.Tokmakova 312 ədəd kitab nəşr etdirmişdi. Uşaq ədəbiyyatına zəngin bir xəzinə hədiyyə etmişdi.*

**Açar sözlər**: uşaq poeziyası, rus uşaq poeziyası, uşaq şairi, sənətkarlıq məharəti, yaradıcılıq fantaziyası, məşhur uşaq povestlərinin müəllifi.